# Şeyxülislam lCESCO-nun Baş direktoru ilə görüşüb

Oktyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı - ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.



İdarədən AZƏRTAC-a bildirilib ki, qonağı səmimi salamlayan Şeyxülislam nüfuzlu beynəlxalq təşkilatın Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirib: "Ölkəmizlə ICESCO arasında əlaqələr yüksək səviyyədə inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyev sizinlə görüşərkən təşkilatın, o cümlədən Baş katib kimi şəxsən sizin fəaliyyətinizi yüksək dəyərləndirdi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ICESCO-nun Xoşməramlı Səfiri seçilməsi də qarşılıqlı faydalı əməkdaşlığın göstəricisidir.

Ermənistan 30 ildən çox idi ki, Azərbaycan ərazisini işğal edərək yaşayış məskənlərimizi, məscid və qəbiristanlıqları dağıtmış, tarixi mədəniyyət abidələrini məhv etmişdi. ICESCO törədilən bu vandalizm aktlarına öz kəskin etirazını bildirib, Azərbaycanın haqlı mövqeyini daim müdafiə edib və bu gün də öz obyektivliyini davam etdirməkdədir. Bu illər ərzində verdiyiniz dəstəyə görə şəxsən sizə və rəhbərlik etdiyiniz qurumun əməkdaşlarına minnətdarlığımı bildirirəm.

Siz Bakıya çoxsaylı səfərlər etmisiniz, budəfəki gəlişiniz xüsusilə əlamətdar bir dövrə təsadüf edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməyə nail olub. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti və ordumuzun rəşadəti sayəsində xalqımız misilsiz qələbə qazanıb. Təbii ki, Azərbaycanın ərazi bütövlüyü yolunda şəhidlər vermişik, Vətən üçün canından keçən hər bir qəhrəmanın xatirəsi bizim üçün əzizdir, şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Dövlətimiz işğaldan azad edilən ərazilərdə böyük quruculuq işləri başlamaqla, tarix və mədəniyyət abidələrini bərpa etməklə şəhidlərin də ruhunu sevindirir".

QMİ sədri Şuşa şəhərinin ICESCO-nun xətti ilə 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı elan olunmasını da mühüm hadisə kimi dəyərləndirib: "Bu barədə xəbəri böyük sevinclə qarşıladıq. QMİ dini mərkəz olaraq bu məsələni diqqət mərkəzində saxlayacaq. İnşallah, gələn il din xadimlərimizin iştirakı ilə Şuşada tədbir keçirməklə mühüm tədbirə öz töhfəmizi verəcəyik".

Şeyxülislam Allahşükür Paşazadə Bakıda keçirilməsi planlaşdırılan Dünya Dini Liderlərinin III Sammiti barədə də geniş məlumat verib, ICESCO-nun bu tədbirdə mötəbər heyətlə iştirak edəcəyinə inandığını bildirib: "Azərbaycan Prezidentinin himayəsi ilə keçirilən hər iki sammitdə dünyanın müxtəlif ölkələrindən dini konfessiyaların liderləri, görkəmli ictimai xadimlər iştirak edib, mühüm məsələlər müzakirə olunub. Növbəti sammitin də yüksək səviyyədə keçirilməsinə, dünyada dinlər və mədəniyyətlər arasında dialoqun inkişafına xidmət edəcəyinə çalışacağıq".

Səmimi qarşılanmaya görə QMİ sədrinə təşəkkür edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki dünyada nüfuzlu din xadimi kimi tanınan Allahşükür Paşazadə ilə növbəti dəfə görüşmək fürsəti əldə etməkdən məmnunluq duyduğunu dilə gətirib: "Şeyxülislam həzrətlərinin ürəyimdə çox əziz bir yeri var. Allaha şükürlər olsun ki, sizinlə yenidən görüşə bildim".

Baş direktor Bakıda keçirdiyi rəsmi görüşlər barədə məlumat verərək Azərbaycanla ICESCO arasında yüksəksəviyyəli əməkdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə inandığını bildirib: "Həm Azərbaycan Prezidenti İlham Əliyevlə, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə görüşlərdə çox səmimi qarşılandım, şəxsimə və rəhbərlik etdiyim təşkilata qarşı çox böyük hörmət bəslındiyinin şahidi oldum. Azərbaycan dövlət rəhbərinin başçılığı ilə qələbəyə imza atıb. Xalqınızı bu münasibətlə ürəkdən təbrik edir, rifah və inkişaf arzulayıram".

Salim bin Məhəmməd əl-Malik Şuşanın 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı elan edilməsinin Azərbaycan həqiqətlərinin müsəlman dünyasına çatdırılmasına gözəl bir vəsilə olacağına inandığını qeyd edib. O bildirib ki, ICESCO Azərbaycanda öz regional nümayəndəliyini də açmağı planlaşdırır. Qonaq bildirib ki, Dünya Dini Liderlərinin Bakıda planlaşdırılan III Sammiti ilə bağlı ICESCO QMİ ilə strateji əməkdaşlıqda maraqlıdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Azərbaycan. - 2023.- 5 oktyabr.- S.10.